# "20 Yanvar - Azadlığımıza gedən yol"



**Samuxdakı Heydər Əliyev Mərkəzində 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunmuş "20 Yanvar - Azadlığımıza gedən yol" mövzusunda "dəyirmi masa" keçirilmişdir.**

Əvvəlcə Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimiz birdəqiqəlik sükutla yad olunmuşdur. Sonra tədbiri rayon icra hakimiyyəti başçısının müavini Kəmalə Xəlilova açaraq 20 Yanvar faciəsinin səbəbləri və bu qanlı hadisənin tariximizdə buraxdığı izlər və nəticələri barədə məruzə ilə çıxış etmişdir.

"Dəyirmi masa"da iştirak edən rayondakı Heydər Əliyev Mərkəzinin direktoru Nuranə Həsənova və Samux rayonu üzrə gənclər və idman sektorunun müdiri Rasim İmamquliyev Azərbaycan tarixində çox mühüm yeri olan 20 Yanvar hadisələrinin xalqımızın yaddaşında hüznlü, eyni zamanda şərəfli gün kimi qaldığını, öz istiqlaliyyətini tələb etmək üçün dinc etiraz hərəkatı keçirən xalqa qarşı sovet imperiyasının xüsusi qəddarlıqla törətdiyi qırğınları insan haqlarının birbaşa pozulması kimi dəyərləndirmişlər.

Sonda 20 Yanvar hadisələri ilə bağlı qısametrajlı sənədli film nümayiş olunmuşdur.

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 19 yanvar (№ 12).- S.14.